# İnci üzə çıxarmı çalxalanmasa ümman...

(Əvvəli 5-ci səhifədə).

günlərdə onun ailəsi də televiziya və sosial mediada döyüşün hər günkü məlumatını izləyirdilər. Oktyabrın 12-də ailənin son danışığı oldu. Həmişəki kimi günün birinci yarısında telefon əlaqəsi saxladılar. Ancaq gecə saat 12-nin yarısı Adəm qardaşı ilə danışdı və ona səhər tezdən ağır döyüşə girəcəklərini bildirərək "halallıq" istədi...

**Ağdərə "xofu"**

Övladlarının (1 və 2-ci övladının) 1992-93-cü illər təvəllüdlü olması zamanı Zeynəb xanım müharibənin onun övladları böyüyənə kimi uğurla sona yetəcəyini düşünmüşdü. Hələ o illərdə Ağdərə döyüşlərində daha çox şəhid olduğunu düşünər, bu rayonun adı gələndə belə həyəcanlanardı. 30 il sonra 20 yaşlı cəngavər oğlunun da Ağdərə istiqamətində döyüşdüyünü bilməsə də, televiziyada bu rayon istiqamətində gedən döyüşlərdən məlumat verildikcə daha çox həyəcan keçirirdi. Bu isə təsadüfi deyildi. Anaların qəlbi sanki hər şeyi əvvəlcədən hiss edir. Ayın 13-dən (oktyabr) etibarən Adəmlə telefon əlaqəsi kəsildi. Ata və qardaşı çox soraqlaşdılar, ancaq Adəmdən xəbər tuta bilmədilər. Dəfələrlə döyüş bölgələrinə getdilər, ancaq bir məlumat əldə edə bilmədilər. Hərbi komissarlığa müraciət etdilər, əlaqələr kəsilmişdi xəbərini aldılar. Həyəcanlı günlərdən birində İkram ata hərbi komissarlıqda olarkən təcili yardım maşını gəldi. Onlar bu maşında rayona şəhidlərin gətirilməsini gördüyü üçün həyəcanla Adəmin gətirildiyini sandılar. Evlərinə toplaşmış qohum-qonşularla birgə o acını yaşadılar - yəni şəhid gətirilmə acısını. Ancaq məlum oldu ki, o təcili yardım maşınındakı ağır yaralı imiş...

Hər gün axtarışda idi itkin düşən döyüşçülər... Hərbi komissarlıqdan bildirildi ki, oktyabrın 13-ü günü Ağdərə istiqamətində döyüşərək şəhid olan igidlərimiz neytral zonada olduğu üçün onları o zonadan götürə bilmirik. Döyüşlərin nəticəsi gözlənilməlidir. Ancaq itkin düşən əsgərlərin valideynləri axtarışı davam etdirirdilər...

**Əsir "şəhidləri"**

Müharibə dövründə əsir şəhidlər də olur. Bu təbii haldır. Onlara əvvəlcə itkin adı verilir. İtkin düşən övladların əzizləri hər gün, gündə neçə dəfə ölüb - dirilirlər... Hər qapı döyüləndə, hər telefon zəngində, hər xəbər məlumatlı yazı və danışıqlarda... Onlar əzizlərinə ölümü yaxın buraxmırlar. Bəlkə əsir düşüb deyə. Ümidlər insana yaşam verir. Əsir düşərsə, qurtarmaq yollarını düşünərlər... Ya gecə, ya da gündüz yuxu getməz gözlərinə. "Qor üstündə" dayanar, ürək döyüntülərinin "hayqırtılarını" eşidərlər. Düz 34 gün belə yaşadı Heydərovlar ailəsi... əgər "yaşamaq" deyilərsə. Və noyabrın 16-sı həm Adəmin, həm də Seyidqışlaq kənd sakini Əsəd Zeynallının nəşi tapılması haqda xəbər verildi... Adəm Ağdərə rayonunda şəhid olmuşdu. Ananın ürəyini didib-parçalayan Ağdərə "xofu" gerçəkləşmişdi...

***El sazında səsim qala bircə sim,***
***El yazında nəsim olam bir əsim...***

Fəlsəfi şairimiz Məmməd Araz sanki bu misraları Adəmin könül nəğmələrinə ithafən yazmışdır. Elinə, obasına, torpağına bağlı bir oğul idi Adəm. İgidliklə döyüşdü, mərdlik nümunəsi göstərdi. Elə bu mərdliyi ilə də el sazında "səsi qaldı", şairlərin şeirlərinə, mahnıların musiqi ahənginə igidliyi, adı düşdü... Baharömürlü igidimin hər nəsimin əsməsində ömrünün illəri təzələndi - yaşının üstünə real yaş gəlməsə də. Əbədiyyən bahar ömürlü, arzuları da bahar qoxulu qalan Adəmim...

**Tituların, təltiflərin ən ucası**

İgidlər torpaqlarımızı müdafiəyə, əsarətdən qurtarmağa gedərkən heç vaxt hansısa təltifi, hansısa tərifi qazanacaqlarını düşünmürdülər. Onların bir məqsədi var idi - zəfəri qazanmaq. Axı vətən onları oğul deyib səsləmişdi... Adəm Heydərovun igidliyi, onun döyüş dostlarının, silahdaşlarının gözü önündə olmuşdur. Bir silahdaşı demişdi ki, mərd və qoçaq, ailəcanlı biri idi Adəm. Döyüşlərdən gələn kimi gündüz saat 11-12 arası ailəsinə zəng edərdi ki, salamat olduğunu bilsinlər. Onların səsini eşitmək isə onun xeyir-duası idi...

Ölümündən sonra Adəm Heydərov "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. Onun ən böyük təltifi isə "Şəhid" adıdır.

**Bitmiş arzuları yaşadanlar**

Bütün şəhid valideynləri bir ortaq acının, itkinin ortaqlarıdır. Onlar həyatda yaşamaq məfhumunu reallıqda yaşamırlar. Onları yaşamağa "məcburlaşdıran" arzuları nakam qalmış övladlarının arzularını qismən də olsa həyata keçirmək və onları "yaşatmaq"! Yaşatmaq ki, tarix yazan oğullar tarixin yaddaşında əbədi yaşasınlar. Yazdıqları tarixdə onlar heç olmasa bir neçə nəsil yaşansın, dillərdə dastan olan qəhrəmanlıqları əbədiləşdirilsin. Adəmin atası və anası da məhz belə arzulu valideynlərdir.

Bum kəndində evlərinə yaxın Adəmin adına "Bulaq kompleksi" tikilmişdir. Məzarüstü igidin adına layiq hazırlanmışdır. Bum qəsəbəsinin mərkəzində İkram Heydərov "Adəm xatirə parkı" hazırlamışdır ki, burada bütün Qəbələ şəhidlərinin şəkilləri mərmərə əks olunmuş şəkildə lövhələrdə öz yerini tutmuşdur. Bu lövhələr şəhidlərin əzizləri tərəfindən hazırlanmışdır... Bu "Xatirə parkı" gənclərimizin and yeri, vətənpərvər insanların ziyarətgahıdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Övlad dərdinin "libas" və "yaşları"**

Şəhid anası dedikdə saçları bəmbəyaz gənc anaları görürük. Simalarına həsrətin kölgə saldığı, gözlərinə bir dəniz "yükünün" yerləşdiyi ümmanlıq, gülüşlərin döndüyü, kədər və qəm küləklərinin üzlərində məcra tapdığı, ağ və qara rəngin saç və geyimlərinə əbədiyyən iz saldığı analar... İgid və qəhrəman analarının hər kəlməsində nisgil duyulur. Atalar da həmçinin "Anaların" yanında özlərini nə qədər dözümlü, təmkinli aparmağa çalışsalar belə kövrəklik onların məyus baxışlarından sezilir... Ancaq o baxışlardan bir qürur, vüqar, fəxarət hissləri də duyulur. Axı onlar bilir ki, torpaq, Vətən şəhidlərlə güclənir, xalq qəhrəmanları ilə tanınır. Axı ümman çalxalanmasa inci də üzə çıxmaz... Ümman çalxalananda isə vətənpərvərlər Vətən eşqinə fəda olurlar!

Qəhrəmanlıq əbədiyyən tarixlərdə və xalqın qan yaddaşında yaşayır

**BIBIXANIM.**

## Dirçəliş günüdür 20-si yanvar

Azadlıq verilmir, alınır, gerçək
Bu yolda ölüm var, qan var, qada var.
Bülbül də qəfəsdə dil ötmür, demək
Azadlıqdır gözəl, ən şirin nübar.
Dirçəliş günüdür 20-si yanvar.
Torpaq da sənindir, Vətən də sənin,
Ölən də səninin, itən də sənin.
Bu torpaq üstündə bitən də sənin,
Niyə də olmasın səninki bu var?
Dirçəliş günüdür 20-si yanvar.
Həyat çeşməsidir sənin bu çeşmən,
Suyunu kim içsə o da yaşar şən.
Şər işlər görənlər şərlə birləşən,
Allah dərgahında olacaqdır xar.
Dirçəliş günüdür 20-si yanvar.
Vətən-vətən olmaz mərdi olmasa,
Sevinci olmasa, dərdi olmasa.
Vətən ocağında bir köz qaralsa,
Düşmən deyib gülər, dost gözü ağlar,
Dirçəliş günüdür 20-si yanvar.
O qanlı faciə, o müdhiş gecə,
Meyit dolu yollar, qan dolu küçə.
Silinib yaddaşdan gedərmi səncə -
Şəhidlər məzardan ayağa qalxar,
Dirçəliş günüdür 20-si yanvar.
Xəyanət edildi Azərbaycana,
Qıyıldı nə qədər günahsız cana.
Yoldu saçlarını qız, gəlin, ana,
Haqq işim dünyaya bəs oldumu car?
Dirçəliş günüdür 20-si yanvar.
Hörmüz Əhrimənlə gəldi üz-üzə,
Qan çıxdı topuğa, qan çıxdı dizə,
Qanlı bir cinayət edildi bizə,
Cinayət edənlər etdilərmi ar?
Dirçəliş günüdür 20-si yanvar.
Həyatda izi var, yaxşının, pisin,
İgidin,qorxağın, mərdin, nakəsin,
Tarixdə bəllidir yeri hər kəsin.
Namərd dalda gəzər, mərd şəhid olar,
Dirçəliş günüdür 20-si yanvar.
Nələrə dözməyib bu xalq, bu millət,
Bir yandan fəlakət, bir yandan zillət,
Bürüyür ay Cəlil, insanı dəhşət,
Niyə də gülməsin üzünə bahar?
Dirçəliş günüdür 20-si yanvar.

**Cəlil XEYİRBƏY,**
**Şəhid atası.**

*Bizim arxiv*

# Qəbələnin Sosialist Əməyi Qəhrəmanları

**ƏMƏK QƏHRƏMANLARI.** 1945-ci ildə müharibə qalibiyyətlə başa çatdıqdan sonra qarşıda duran başlıca vəzifə iqtisadiyyatı bərpa etmək və yenidən qurmaq idi. Azərbaycanın hər yerində olduğu kimi, Qutqaşen rayonunda da sənaye və kənd təsərrüfatı məhsulları istehsalını sürətlə bərpa etmək uğrunda ümumxalq mübarizəsi başlandı.

Müharibədən sonrakı illərdə bütün Azərbaycanda olduğu kimi, Qutqaşenin zəhmətkeş əhalisi də ağır zəhmət hesabına tütünçülük, baramaçılıq, çəltikçilik və başqa sahələrdə uğurlar əldə edirdilər. O illərin bərpa və quruculuq işlərində əməkləri ilə fərqlənmiş Qutqaşen zəhmətkeşlərinin də fədakarlığı yüksək qiymətləndirilmiş, 13 nəfər "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdür.

Qutqaşendə kənd təsərrüfatının müxtəlif sahələrinin bərpa və inkişafında qadınlar böyük fədakarlıq göstərirdilər. İşçi qüvvəsinin əhəmiyyətli hissəsinin müharibə dövründə həlak olması, yaxud yaralanıb şikəst qalması şəraitində təsərrüfat işlərinin əsas ağırlığı qadınların çiyninə düşürdü. 1940-cı illərin sonu - 1950-ci illərin əvvəllərində rayon üzrə o zamanın ən yüksək dövlət təltifi sayılan "Sosialist Əməyi Qəhrəmanı" adını almış 10 nəfərdən 9-nun qadın olması buna əyani sübutdur. Tütünçülük təsərrüfatında qadınların rolu böyük idi. Rayondakı Əli Bayramov adına kolxozda olan 6 nəfər "Sosialist Əməyi Qəhrəmanı"ndan 5-i, Lenin adına kolxozda isə 3 nəfəri qadın idi. Həmin illərdə rayonda tütünçülük, çəltikçilik, qoyunçuluq, baramaçılıq kimi təsərrüfat sahələri geniş inkişaf etmişdir. Əmək uğurları da məhz bu sahələrdə əldə olunurdu. Həmin sahələr respublika və ölkə əhəmiyyətli sayılırdı.

Əzimova Cahan Həsən qızı 1948 -1955-ci illərdə Kürd kəndindəki "Şərq" kolxozunda tütünçülük üzrə manqabaşçısı işləmiş, 1949-cu ildə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdür.

Çaldallari Təzəgül Nic kəndindəki Lenin adına kolxozda tütünçülük sahəsində çalışmış, 1935 - 1965-ci illərdə manqabaşçısı olmuşdur. Tütün becərilməsi və istehsalında qazandığı yüksək göstəricilərə görə 1949-cu ildə "Sosialist Əməyi Qəhrəmanı" adını almışdır.

Əhmədov Zakir Bəkir oğlu Mamaylı kəndinin əsas təsərrüfat sahəsi olan çəltikçilik sahəsində yüksək əmək uğurları qazanmış və 1949-cu ildə "Sosialist Əməyi Qəhrəmanı" adını almışdır. 1950 - 1951-ci illərdə Hacıalılı kənd sovetinin sədri işləmiş, V. V. Kuybışev, Əli Bayramov, M. Ə. Əzizbəyov adına kolxozlarda müxtəlif vəzifələrdə çalışmışdır.

1949-cu ildə çəltikçilik sahəsində yüksək əmək göstəricilərinə görə Bayramkoxalı kəndinin çəltikçisi Rəsul Rüstəm oğlu Qəhrəmanov "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdür.

Muradxanova Badam Qədir qızı 1946 - 1973-cü illərdə Əli Bayramov adına kolxozda sıravi kolxozçu, daha sonra manqabaşçısı işləmişdir. Tütünçülük sahəsində yüksək əmək nailiyyətləri qazandığına görə 1950-ci ildə ona "Sosialist Əməyi Qəhrəmanı" adı verilmişdir.

Rəsulova Bənövşə Qədir qızı Mamaylı kəndindəki M. Əzizbəyov adına kolxozda tütünçü kimi çalışmış, 1950-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" adını almışdır.

Məmmədova Pakizə Qurban qızı 1938-1967-ci illərdə, Məmmədrəhimova Minarə Abduləli qızı 1943 - 1973-cü illərdə Böyük Əmili kəndindəki Əli Bayramov adına kolxozun manqabaşçısı işləmiş, tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuş və 1950-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdür.

(Ardı var).

*Maraq dünyamız*

# Ayların digər dillərdə mənaları

Qədim dövrlərdə xronologiya 10 aylıq bir təqvimə əsasən aparılıb (bir ildə ümumilikdə 304 gün var idi) və ayların adları sıra ilə üst-üstə düşürdü: birinci, ikinci, altıncı, onuncu (və ya latıncada unus, duo, tres, quattuor, quinque, sex, septem, octo, roman, decem). Həmin təqvimdə il gecə və gündüzün bərabər olduğu və təbiətin oyandığı mart ayından başlayıb. Eramızdan əvvəl VII əsrdə təqvimin islah edilməsinə - günəşay tsikli ilə uyğunlaşdırılmasına qərar verildi. Beləliklə, 2 ay daha yarandı - yanvar və fevral ayları və il 365 günə qədər artdı.

Türklər isə yanvar ayına "Ocak" - "ocaq", "soba" deyirlər.

Kökü əski türkcədəki "Otçak" sözündən (otçak) gəlir.

"Ot-çak" sözü "evdə odun yandırılan yer" mənasına gəlir.

Zamanla "Otçak" sözü "ocak", daha sonra da "Ocak" oldu.

Türk dünyasında ocaq çadırların ortasında yandırılan müqəddəs bir məkan olaraq bilinir.

Ocaq ailəni bir yerə yığan, aralarındakı bağı möhkəmləndirən bir kult kimi görünür.

Türk mədəniyyətində ocaq ailənin yurdunu, əcdadlarından sonrakı nəslə qədər uzanan bağı təmsil edir. Bu səbəbdən də bu gün tez-tez istifadə olunan "ata evi", "ocağı qalamaq", "ocağın öləziməsi", "ocağın sönməsi" kimi ifadələr əslində nəslin davamını və ya yox olmasını ifadə edir. Bir sözlə, "Ocaq" Türk mədəniyyətinin mühüm elementidir.

"Ocak" ay adı kimi Türkiyədə 1945-ci ildən istifadə olunmağa başlayıb. Digər ayların qədim türkcədə mənası isə aşağıdakı kimidir:

***Yanvar - Ocaq.***
***Fevral - Çilə.***
***Mart - Bozay.***
***Aprel - Çiçək.***
***May - Elat.***
***İyun - Qızmar.***
***İyul - Bürkü.***
***Avqust - Qorabişirən.***
***Sentyabr - Yığım.***
***Oktyabr - Əkin.***
***Noyabr - Güzdək.***
***Dekabr - Aralıq.***

**İlahə EYVAZLI.**